Statistika

1. Statistikanın bir elm kimi yaranması, statistika anlayışının məzmunu, predmeti və onun xüsusiyyətləri.

Statistika latın sözü «statusdan»,yunancadan "statizein", yaxud italyan sözü olan «stato»dan əmələ gəlmişdir. Status hadisənin vəziyyəti, statizein müşahidə, stato isə dövlət deməkdir. Statistika dövlət işinin bilicisi kimi işlədilir, müəyyən biliklərin cəmi, dövlət haqqında məlumat kimi başa düşülürdü. İlk dəfə 1746-cı ildə bu termindən alman filosofu və hüquqşünası professor Qotfrid Axenval istifadə etmişdir. Lakin Q.Axenvalın statistikanın məzmunu, predmeti və vəzifələri haqqında baxışları müasir statistika elminə olan baxışlardan uzaq olmuşdur. Onun fikrincə statistika dövlət üçn xüsusi əhəmiyyəti olan problemlərin təsviridir, xülasəsidir. ***Statistik*** dövlətin ictimai problemləri, əhalisi və iqtisadiyyatı üzrə icmallar təşkil edən insandır. Statistikanın bu istiqaməti dövlətin siyasi vəziyyətini və diqqətəlayiqliyini təsvir etməyə cəhd edirdi. Alman təsviri məktəbindən 100 il qabaq əmələ gəlmiş ingilis siyasi arifmetika məktəbi statistika elminin müasir baxışlarına daha yaxın olmuşdur. Siyasi arifmetika məktəbinin yaradıcıları ingilis alimləri Con Qraunt (1620-1674) və Vilyam Petti (1623-1687) olmuşdur. Siyasi arifmetiklər faktların ümumiləşdirilməsi və təhlili yolu ilə cəmiyyətin vəziyyətini və inkişafını rəqəmlərlə xarakterizə etməyə, ictimai hadisələrin inkişaf qanunauyğunluğunu göstərməyə cəhd etmişdilər**.** K.Marks V.Pettini statistikanın yaradıcısı adlandırmışdır. **XIX əsrin birinci yarısında** statistika elminin üçüncü istiqaməti riyazi statistika yaranır.

Hazırda statistika termini bir neçə mənada işlədilir. Çox vaxt statistika külliyatlarında və dövri mətbuatda dərc edilən məlumatı statistika adlandırırlar. Statistika orqanları tərəfindən həyata keçirilən kütləvi sosial-iqtisadi hadisələrin planlı və müntəzəm uçota alınması da statistika adlanır. Bütün bunlarla bərabər, statistika, predmeti və tədqiqat metodu olan ictimai elmdir. İctimai hadisə və proseslərin kəmiyyət tərəflərini öyrənmək statistikanın predmetini təşkil edir. Statistika kütləvi ictimai hadisələrin kəmiyyət tərəfini keyfiyyət tərəfindən ayırmadan öyrənən bir elmdir.**Statistikanın predmetinin özünəməxsus xüsusiyyətləri:**

- ayrı-ayrı faktları deyil, kütləvi sosil-iqtisadi hadisə və prosesləri tədqiq edir,
- konkret məkan və zaman şəraitində icimai hadisə və proseslərin kəmiyyət tərəfini öyrənir,
- ictimai hadisələrin quruluşunu xarakterizə edir,
- vaxt etibarilə hadisələrin dəyişməsini qiymətləndirir,
- ictimai hadisə və proseslər arasındakı səbəb-nəticə asılılıqlarını aşkar edir.

Deməli, statistika kütləvi ictimai-iqtisadi hadisələrin kəmiyyət tərəfini keyfiyyət tərəfindən ayırmadan konkret məkan və zaman şəraitində öyrənən ictimai elmdir.

2. Statistika elminin əsas anlayışları, onların hər birinin mahiyyəti.

Statistika elminin əsas anlayışları, onların hər birinin mahiyyəti:

Statistikanın öyrəndiyi kütləvi hadislər, bir qayda olaraq, ayrı-ayrı elementlərdən, ayrıayrı vahidlərdən ibarətdir. Bu ayrı-ayrı vahidlərin hamısına birlikdə **statistika məcmuyu** deyilir. Məsələn, ölkənin bütün əhalisi statistika məcmuyu, ayrı-ayrı şəxslər isə məcmu vahididir. **Məcmu vahidi** - məcmunun keyfiyyətcə eyninövlüyünü ifadə edən, yəni əlamətin daşıyıcısı və onun ilkin ünsürüdür. Kənd təsərrüfatı müəssisələri bütövlükdə statistika məcmuyu, ayrı-ayrı kənd təsərrüfatı müəssisələri isə məcmu vahidi ola bilər. Məcmu vahidləri onlara xas olan əlamətə görə müxtəlif qiymətlərə malik olarsa, buna **variasiyas(dəyişən)** deyilir. Məsələn, müəssisələr fəhlələrin sayına, əsas fondların həcminə və s. görə bir-birindən fərqlənir. **Müşahidə edilən və ya ölçülən vahidlərin, obyektlərin xarakterik xüsusiyyəti, xassəsi statistikada əlamət adlanır.** Məsələn, kənd təsərrüfatı müəssisələrinin əlaməti əsas istehsal fondlarının dəyəri, ümumi məhsul, işçilərin sayı, əkin sahəsi və s. ola bilər. Əhali üzrə onun cinsi, yaşı, milliyyəti, təhsil səviyyəsi və s. əlamət adlanır.

Əlamətlər keyfiyyət, kəmiyyət, faktor, nəticə və statistik göstərici əlamətlərinə bölünür. Ayrı-ayrı qiymətləri mühüm xüsusiyyətlərinə, xassələrinə görə bir-birindən fərqlənən əlamətlər **keyfiyyət əlamətləri adlanır**.Keyfiyyət əlamətlərinə misal olaraq, əməyin xarakterinə görə fərqlənən çilingər, xarrat, traktorçu və s. ixtisaslarını göstərmək olar. Keyfiyyət əlamətləri atributiv əlamətlər də adlanır. Ayrı-ayrı qiymətləri kəmiyyətcə birbirindən fərqlənən əlamətlərə **kəmiyyət əlamətləri deyilir**. Kəmiyyət əlamətləri rəqəmlərlə ifadə olunur.Məsələn, müəssisələrin əsas fondlarının həcmi, məhsul buraxılışının həcmi, fəhlələrin əmək haqqı və s. kəmiyyət əlamətləridir. **Faktor əlaməti** - digər əlamətlərə təsir göstərən və asılı olmayan əlamətdir (gəlir istehlaka, mənzilin sahəsi enerji məsrəfinə, reklam xərci mənfəətə və s. təsir edir). **Nəticə əlaməti -** faktor əlamətlərinin təsiri altında dəyişən və asılı əlamətdir (istehlakın həcmi gəlirdən, enerji məsrəfi mənzilin sahəsindən və s. asılıdır). İctimai hadisə əlamətlərinin həcmini və miqdar nisbətlərini əks etdirən kateqoriyaya **statistika göstəriciləri** deyilir**.** Statistika göstəricilərinə misal olaraq ümumi daxili məhsulun, mal dövriyyəsinin həcmini, əmək məhsuldarlığının səviyyəsini və s. göstərmək olarş

3. Statistikanın metodları, statistik tədqiqatın mərhələləri və onların mahiyyəti.

Statistika müxtəlif sosial-iqtisadi hadisələri öyrənmək üçün ümumi və xüsusi metodlardan istifadə edir.

1) Ümumi statistik metodlar:

Bura daxildir - statistika müşahidəsini, statistika materiallarının qruplaşdırılması və yekunlaşdırılmasını, statistika cədvəllərini və qrafikləri, ümumiləşdirici göstəricilərin (mütləq, nisbi və orta kəmiyyətlər) tətbiqi.

Hər hansı ictimai hadisəni öyrənmək üçün, birinci növbədə, həmin hadisə haqqında məlumat toplanılmalıdır. Bu vəzifəni həyata keçirmək üçün statistika müşahidəsi aparmaq lazımdır. Deməli, ictimai hadisənin dərk edilməsində statistika müşahidəsi ilk addımdır. Statistika müşahidəsi nəticəsində toplanılmış xam statistika məlumatını dərk ediləcək şəklə salmaq üçün onu yekcins qrup və yarımqruplara ayırmaq, yekunlaşdırmaq, sonra isə alınan nəticələri cədvəllərdə vermək və qrafiklər vasitəsilə təsvir etmək lazımdır. İctimai hadisələrin öyrənilməsində ümumiləşdirici göstəricilərin hesablanmasının mühüm əhəmiyyəti vardır. Ümumiləşdirici göstəriciləri hesablamaqla ictimai hadisələrin həcmində, quruluşunda baş vermiş dəyişiklikləri müəyyən etmək mümkün olur. Statistika materiallarının təhlilində ümumiləşdirici göstəricilər mühüm yer tutur.

2) Xüsusi (analitik) statistik metodlar:

Bunlar daha dərin analiz üçün istifadə olunur:

1. Qruplaşdırma metodu

(Yenə burada da istifadə olunur) Struktur və tərkibi öyrənmək üçün **2. Korrelyasiya–reqressiya metodu**

Dəyişənlər arasındakı əlaqəni ölçür.

- Korrelyasiya → əlaqənin gücü
- Reqressiya → təsirin istiqaməti və forması

Məsələn: təhsil səviyyəsi → gəlirə təsiri

3. Dinamik sıraların təhlili metodu Zaman üzrə dəyişiklikləri öyrənir.

Məsələn:

- illər üzrə əhali artımı
- aylıq satışlar

Bu metodla:

- artım tempi
- dəyişmə sürəti hesablanır.

4. İndeks metodu

Mürəkkəb göstəricilərin dəyişməsini ölçür.

Məsələn:

- qiymət indeksi
- əmək haqqı indeksi

5. Analiz və sintez metodu

- Analiz → hissələrə bölərək öyrənmək
- Sintez → ümumi nəticə çıxarmaq

4. Statistika müşahidəsinin müxtəlif əlamətlərə görə növlərinin izahını verin.
Statistikanın mühüm metodlarından biri statistika müşahidəsidir. İctimai hadisələrin kəmiyyət tərəfini öyrənmək üçün hər şeydən əvvəl, həmin hadisələrin həcmini, səviyyəsini xarakterizə edən statistika məlumatı əldə etmək lazımdır. Ona görə də hər bir statistika tədqiqatının birinci mərhələsi statistika müşahidəsindən ibarət olur.

Statistika müşahidəsi, təşkil olunma forması ilə bərabər, digər əlamətlərə görə də təsnifatlaşdırıla bilər. Belə əlamətlərdən **ictimai həyatda baş verən hadisələrin qeydə alınmasının dövriliyini göstərmək olar.** Bu əlamət üzrə statistika müşahidəsi: **1. Cari (fasiləsiz)**

2.fasilə

li

müşahidəyə

ayrılır.

İctimai hadislərin vəziyyətində baş verən dəyişiklliklər baş vermə anında qeydə alınarsa, belə müşahidəyə cari müşahidə deyilir. Cari müşahidəyə misal olaraq, vətəndaşlıq vəziyyəti aktlarında doğum,ölüm, kəbin və boşanma hallarının qeydə alınmasını, məhsul buraxılışının, yüklərin göndərilməsinin uçota alınmasını və s. göstərmək olar.

İctimai hadisələr haqqındakı faktların ya müntəzəm olaraq vaxtaşırı, ya da ehtiyyacdan asılı olaraq lazım olduqda qeydə alınmasına fasiləli müşahidə deyilir. Fasiləli müşahidə müntəzəm və qeyri müntəzəm şəkildə aparıla bilər.

Əgər statistika müşahidəsi müntəzəm, vaxtaşırı, yəni müəyyən dövrdən bir aparılarsa, buna dövri müşahidə deyilir. Dövri müşahidəyə misal olaraq ölkəmizdə hər il aparılan əkin sahələrinin qəti uçotunu göstərmək olar.

Əgər statistika müşahidəsi məlumata ehtiyac duyulduqda aparılarsa, belə müşahidəyə qeyri-müntəzəm, yaxud birdəfəlik müşahidə deyilir.

Birdəfəlik statistika müşahidəsinə misal olaraq cins mal-qaranın,bağların,ticarət müəssisələrinin və s. uçota alınmasını göstərmək olar.

Statistika müşahidəsi tədqiq edilən **hadisənin vahidlərinin əhatə olunması əlamətinə görə də təşnifatlaşdırılır.** Bu əlamət üzrə statistika müşahidəsi

1). Ümumi və ya başdan-başa müşahidə

2). Qeyri-ümumi müşahidəyə

ayrılır.

Öyrənilən obyektin bütün vahidləri uçota alınarsa, buna ümumi müşahidə və ya başdan-başa müşahidə deyilir. Ümumi müşahidəyə misal olaraq bütün müəssisə, idarə və təşkilatların məhsul istehsalı, işçilərin sayı, əmək haqqı fondu barəsində təqdim etdikləri cari hesabatları göstərmək olar.

Tədqiqat obyekti vahidlərinin hamısı deyil, bir hissəsi qeydə alınarsa, belə müşahidəyə qeyri-ümumi müşahidə deyilir. Ümumi müşahidəyə nisbətən qeyri – ümumi müşahidə zamanı vaxta və vəsaitə xeyli qənaət edilir. **Qeyri – ümumi müşahidənin növlərinə seçmə müşahidəsi, əsas kütlənin müşahidəsi, monoqrafiya müşahidəsi daxildir.**

Bütün statistika məcmuyunu bir sıra göstəricilər üzrə xarakterizə etmək üçün həmin **məcmu vahidlərinin bir hissəsinin tədqiqinə seçmə müşahidəsi deyilir.** Məhsulların keyfiyyətinin öyrənilməsində, əhalinin ayrı –ayrı sosial qruplarının büdcəsinin öyrənilməsində, ümumi müşahidələrin nəticəsinin dəqiqləşdirilməsində və bir sıra digər hallarda seçmə müşahidəsindən istifadə edilir.

Öyrənilən statistika məcmuyu vahidlərinin ümumi həcmində çoxluq təşkil edən hissənin uçota alınmasına əsas kütlənin müşahidəsi deyilir. Buna misal olaraq, bazarlarda satılmış malların qiyməti və miqdarının qeydə alınmasını göstərmək olar.

Qeyri – ümumi müşahidənin bir növü də monoqrafiya müşahidəsidir. **Ayrı – ayrı tədqiqat obyektinin, məsələn, ayrı – ayrı müəssisələrin, rayonların və s. ətraflı təsvirinə monoqrafiya müşahidəsi deyilir.**

5. Statistika müşahidəsinin xətası, onun növləri və aradan qaldırılması üsulları.

Müşahidə nəticəsində əldə edilmiş statisika məlumatı ilə sosil-iqtisadi hadisənin həqiqi qiyməti arasında əmələ gələn fərq statistika **müşahidəsinin xətası** adlanır. Statistika müşahidəsinin xətası, iki qrup

xətaya – qeyd xətasına və reprezentativ xətaya ayrılır. Qeyd xətası təsadüfi və müntəzəm xətaya bölünür.

Qeyd xətası toplanılan məlumatın düzgün müəyyən edilməməsi və ya düzgün alınmaması nəticəsində baş verir. Qeyd xətası həm ümumi, həm də qeyri-ümumi müşahidələrdə baş verə bilər.

Təsadüfi qeyd xətası müxtəlif səbəblərdən qeydiyyatı aparan şəxsin faktları düzgün dərk etməməsindən, rəqəmləri düz yazmaması və s. nəticəsində baş verə bilər. Məsələn, əhalinin siyahıyaalınmasında qeydiyyatçı 26 yaş əvəzinə 62 yazması təsadüfi xətadır. Bu növ xətalar baş verə bilər.

Müntəzəm qeyd xətası göstərilən göstəricilərin, çox vaxt, yuvarlaqlaşdırılması nəticəsində baş verir. Məsələn, əhalinin siyahıyaalınmasında qeydə alınan şəxsin həqiqi yaşının 51-52 yaş olması əvəzinə çox vaxt 50 yaş yazılması müntəzəm qeyd xətasının baş verməsinə səbəb olur. Belə xəta qəsdən edilən xəta adlanır.

Qəsdən edilən qeyd xətası, qeydiyyat aparan şəxslərin düşüncəli olaraq təhrif edilmiş məlumat vermələri nəticəsində baş verir. Qəsdən edilən qeyd xətası statistika müşahidəsinin bütün növlərində baş verə bilər. Ona görə də statistika orqanları aparılan müşahidələrə nəzarətin lazımi səviyyədə olmasına nail olmalıdırlar.

Reprezentativ xəta ancaq qeyri-ümumi müşahidələrdə baş verir. Tədqiq olunan statistika məcmuyunun bütün vahidlərinin müşahidə əsasında əhatə olunmaması nəticəsində reprezentativ xəta baş verə bilər. Bu xətanın mahiyyəti haqqında lazımi məlumat "Seçmə müşahidəsi" mövzusunda verilir.

Statistika müşahidəsi başa çatdıqdan sonra toplanılmış məlumata nəzarət həyata keçirmək məqsədilə ətraflı yoxlanılmalıdır. Bu zaman müşahidə vahidinin tam əhatə olunması, statistika formulyarlarının və digər müşahidə sənədlərinin düzgün doldurulması birinci növbədə yoxlanılmalıdır. Müşahidə zamanı toplanmış məlumatlar həm məntiqi, həm də hesablama yolu ilə yoxlanılmalıdır.Hesablama yolu ilə toplanılmış məlumata nəzarət yekun məlumatlarının yoxlanılması əsasında həyata keçirilir. Məntiqi nəzarət məlumatın düzgünlüyünə ancaq şübhə yaratdığı halda, hesablama nəzarəti xətanın (səhvin) mövcudluğunu müəyyən etməyə imkan verir. Statistika müşahidəsinin materialları o vaxt qəbul edilmiş hesab oluna bilər ki, məlumatların düzgünlüyü həm məntiqi, həm də hesablama yolu ilə nəzarətdən keçmiş və düzəliş verilmiş olsun. Toplanılmış məlumatın

yoxlanılması və qəbul edilməsilə statistika tədqiqatının ilkin mərhələsi başa çatmış olur.

6. Statistika müşahidəsinin təşkilinin əsas formaları və üsullarının izahını verin. Ölkəmizdə statistika müşahidəsinin təşkilinin əsas formaları hesabat, xüsusi təşkil edilmiş statistika müşahidələri və registrdən ibarətdir.

Hazırda müşahidənin ən geniş yayılmış forması **hesabatdır.** Hesabat ölkənin iqtisadi vəziyyəti haqqında müntəzəm və geniş proqram üzrə ətraflı, düzgün məlumat almağa imkan verir. Burada verilən məlumatın dəqiqliyinə cavabdeh olan şəxslərin imzası ilə təsdiq edilmiş xüsusi forma və göstəricilər üzrə müəyyən sənədlərdə məlumat verilir. Bu hesabatlar ayrı-ayrı müəssisə, idarə və təşkilatlarda olan statistika şöbələri, iqtisadiyyat şöbələri, yaxud mühasibat şöbələrində xüsusi şəxslər tərəfindən tərtib edilir.

Statistika müşahidəsinin təşkilinin ikinci forması xüsusi təşkil edilmiş müşahidələrdir. **Xüsusi təşkil edilmiş müşahidələr -** bir sıra əlamətlər üzrə statistik müşahidə obyektinin sayı, tərkibi və vəziyyəti haqqında məlumatların əldə edilməsi məqsədilə bərabər vaxt fasiləsində təkrarlanan xüsusi təşkil edilmiş statistika müşahidəsidir. Məsələn, əhalinin tərkibi (cinsi,yaşı,milliyəti və s.) ailə tərkibində baş vermiş dəyişikliklər, əhalinin istehlakının ümumi həcmi və onun quruluşu və s. haqqında məlumatı hər vaxt hesabat vasitəsilə almaq qeyri-mümkündür. Belə məlumatlar yalnız xüsusi təşkil edilmiş uçot və siyahıyaalmalar vasitəsilə əldə edilə bilər. Xüsusi təşkil edilmiş müşahidələr, adətən, həmişə müəyyən tarixdə aparılır. Bunların əsasını siyahıyaalmalar təşkil edir.

Statistika müşahidəsinin təşkili formalarından biri də **registrdir.** Bu, müşahidə formasında qeydə alınmış və əvvəli olan uzunmüddətli proseslərin fasiləsiz statistika müşahidəsidir. Registr müşahidə forması müşahidə vahidinin vəziyyətini daima izləyən bir sistemdir. Registrdə hər bir müşahidə vahidi göstəricilər məcmu ilə xarakterizə olunur. Bu göstəricilərdən biri bütün müşahidə dövrü ərzində sabit qalır və bir dəfə qeydə alınır, digər göstəricilər isə təzələnir.

Statistik müşahidənin üsulları:

- **Bilavasitə müşahidədə** qeydiyyatçı özünün ölçməsi, hesablaması yaxud yoxlaması nəticəsində qeydiyyata məruz qalan faktı müəyyənləşdirir.
- **Sənəd üsulu** uçot xarakterli müxtəlif sənəd növlərindən istifadəyə əsaslanır.
- **Sorğu üsulunda** zəruri məlumatlar respodentlərin sözləri əsasında, yəni müşahidə zamanı qeydiyyata məruz qalan əlamətin daşıyıcısına birbaşa müraciət etməklə əldə edilir.

- **Şifahi formada** təlimatlandırılmış işçilər müvafiq şəxslərin sorğusu əsasında zəruri məlumatları əldə edir və cavabları özləri qeydə alırlar.
- **Özüqeydəalmada** formulyarları respodentlər özləri doldurular.
- **Müxbir** üsulunda məlumatların toplanması könüllü müxbirlərin vasitəsilə həyata keçirilir.
- **Anket üsulu** informasiyanın anket formasında toplanmasını nəzərdə tutur.

Anketlərin doldurulması könüllü xarakter daşıyır və anonim həyata keçirilir.

7. Statistika müşahidəsinin proqram-metodoloji məsələləri və onların izahı. Statistika müşahidəsi planında müşahidənin proqram- metodoloji məsələləri mühüm yer tutur. **Müşahidənin proqram-metodoloji məsələlərinə**

1.Müşahidənin məqsədi

2.Müşahidə obyekti və müşahidə vahidinin müəyyən edilməsi

3.Müşahidə proqramının işlənməsi

4.Müşahidə növünün və üsulunun seçilməsi

5. Müşahidə vaxtının və müddətinin müəyyən edilməsi

6. Alınmış materialların yoxlanılmasının təşkili daxildir.

Müşahidənin aparılmasında, hər şeydən əvvəl, onun vəzifələrinin müəyyən edilməsinin xüsusi əhəmiyyəti vardır. Müşahidənin vəzifələri öyrənilən ictimai hadisənin xüsusiyyətindən, təcrübənin və elmin tələbatından asılı olaraq, dövlət idarəetmə orqanlarının ehtiyyaclarına müvafiq sürətdə müəyyən edilir.Ölkəmizdə statistika işlərinin planlaşdırılması Dövlət Statistika Komitəsi tərəfindən həyata keçirilir. Müşahidənin vəzifələrini müəyyən etdikdən sonra, ona müvafiq olaraq müşahidə obyekti müəyyənləşdirilir.

Statistika tədqiqatından keçəcək ictimai-iqtisadi hadisələrin məcmuyu **müşahidə obyekti adlanır**. Məsələn, əhalinin siyahıyaalınmasında ölkədə yaşayan bütün şəxslərin məcmuyu müşahidə obyekti olacaqdır. Müşahidə obyektinin tərkib hissəsi olub qeydə alınacaq əlamətləri özündə əks etdirən, həmçinin uçota almaq üçün əsas olan elementlər **müşahidə vahidi adlanır.**

Hər bir statistika müşahidəsi elmi əsasla tərtib edilmiş proqram üzrə aparılır. **Müşahidənin proqramı** qeydə alınacaq əlamətlərin, yəni cavab toplanılacaq sualların siyahısından ibarətdir. Toplanacaq məlumatın keyfiyyəti, onun yararlılığı müşahidə proqramının nə dərəcədə yaxşı işlənib hazırlanmasından

asılıdır. Öyrənilən hadisəni tam xarakterizə etmək üçün müşahidənin proqramı bütün mühüm əlamətləri əhatə etməlidir. Müşahidənin proqramına bir – birinə qarşılıqlı nəzarət edən əlamətlərin daxil edilməsinin də xüsusi əhəmiyyəti vardır. **Proqramın suallarına cavab ayrıca işlənib hazırlanmış xüsusı statistika formulyarlarında yazılır. Doldurulmamış formulyarlar sadəcə olaraq blank adlanır**. Blankda müşahidənin proqramının sualları göstərilir və həmin suallara cavab yazmaq üçün boş yer qoyulur. **Statistika müşahidəsinin proqramı üzrə verilən izahat və göstərişlər təlimat adlanır**. Təlimatda müşahidənin proqramındakı hər bir sualın ətraflı izahı verilir və onlara necə cavab yazılması şərh edilir.

Statistika müşahidəsinin proqram – metodoloji məsələləri ilə bərabər, onun təşkili məsələlərinin işlənib hazırlanmasının statistika tədqiqatı üçün mühüm əhəmiyyəti vardır.

Müşahidənin təşkilat planı onun müvəffəqiyyətlə aparılmasını təmin edən tədbirlər sistemindən ibarətdir. O əsas sənəd olmaqla, müşahidənin təşkili və aparılmasının bütün mühüm məsələlərini özündə əks etdirir.

Müşahidənin təşkilat planında müşahidənin obyekti, məqsəd və vəzifələri; müşahidəni aparacaq təşkilatım adı, müşahidənin vaxtı və müddəti, o cümlədən nəzərdə tutulan hər bir işin yerinə yetirilməsinin konkret müddəti, müşahidənin aparılmasına hazırlıq işləri, müşahidəni aparmaq üçün lazım olan kadrların seçilməsi və öyrədilməsi; müşahidənin aparılması qaydası, toplanılmış materalların təhvil verilməsi qaydası; ilkin və son yekunların alınması; yuxarı təşkilata məlumatın vaxtında verilməsivə s. göstərilir.

8. Statistik qruplaşdırma anlayışı, qruplaşdırmanın vəzifələri və növləri.

Statistika materiallarının yekunlaşdırılmasında qruplaşdırma mühüm yer tutur. **İctimai hadisə vahidlərinin onlara xas olan mühüm əlamətlər üzrə hissələrə ayrılmasına statistikada qruplaşdırma deyilir.** Qruplaşdırma kütləvi statistika məlumatının işlənilməsinin və təhlilinin elmi əsasını təşkil edir.

Qruplaşdırma metodu vasitəsilə **aşağıdakı vəzifələr yerinə yetirilir:**

1. **İctimai –iqtisadi tipləri ayırmaq;**
2. **Hadisənin quruluşunu öyrənmək;**
3. **Hadisələr arasında olan əlaqə və asılılıqları aşkar etmək.**

Bu vəzifələrə uyğun olaraq, qruplaşdırma aşağıdakı üç növə ayrılır:

1. Tipik qruplaşdırma - keyfiyyətcə müxtəlif növlü statistik məcmunu sosial-iqtisadi tiplərıə uyğun olaraq eyninövlü vahidlər qrupuna ayırmaqdır.

(iqtisasdiyyatın sektorlar, mülkiyyət formaları üzrə təsərrüfat subyektlərinin və s. qruplaşdırırlması). Tipik qruplaşdırmaya misal müəssisələrin mülkiyyət formalarına görə qruplaşdırılmasını göstərmək olar.

2. Quruluş qruplaşdırılması - öyrənilən hadisənin daxili quruluşunu aşkar edir. Quruluş qruplaşdırılması nəticəsində hər hansı bir variasiya əlaməti üzrə hadisənin quruluşunu xarakterizə edən eyninövlü məcmu qrupları təşkil edilir (hər nəfərə düşən gəlirlərin həcminə görə əhalinin, məhsulun həcminə görə təsərrüfatların, cəlbedilmə müddətinə görə depozitlərin quruluşu və s.). Bir sıra dövrlər üzrə quruluş qruplaşdırmanın təhlili öyrənilən hadisənin quruluşunun dəyişikliyini göstərir.

3. Analitik qruplaşdırma - öyrənilən hadisələr və onların əlamətləri arasındakı əlaqə və asılılıgı göstərir. Bu qruplaşdırmanın əsasında faktor (amil) əlaməti durur və hər bir qrup nəticə əlamətinin orta qiyməti ilə xarakterizə olunur.

Öyrənilən hadisələrin mürəkkəblik dərəcəsindən və təhlilin vəzifəsindən asılı olaraq qruplaşdırma bir yaxud bir neçə əlamət üzrə həyata keçirilə bilər.
Sadə qruplaşdırma - Bu zaman qruplaşdırma bir əlamət üzrə təşkil edilir.
Mürəkkəb qruplaşdırma - Bu zaman qruplaşdırma iki yaxud bir neçə əlamət üzrə təşkil edilir.

Qruplaşdırma əlamətinin növünə görə:

- **Atributiv (keyfiyyət) -** Əgər atributiv əlamət as sayda müxtəlif növlüdürsə, onda qrupların sayı bu müxtəlif növlərin sayı ilə müəyyən edilir. Məsələn, əhalinin cinsi, ailə vəziyyəti, təhsili üzrə qruplaşdırılması, əhalinin şəhər və kənd əhalisinə bplünməsi və s.
- **Kəmiyyət -** Kəmiyyət əlaməti üzrə qruplaşdırmada qrupların sayının müəyyən edilməsi kimi xüsusi hesablamalar tələb edir. Məsələn, əhalini gəlirlərinin səviyyəsinə görə, ayrı-ayrı qida məhsullarının istehlakının həcminə görə və s.

9. Aşagıda verilmiş məlumatlara əsasən fəhlələri aylıq əmək haqqının həcminə görə 4 bərabər fasiləli qrupa ayırın və hər bir qrup üzrə aşağıdakı göstəriciləri hesablayın:

a) hər qrup üzrə təhsil növünə (tam orta və ümumi orta) görə işçilərin sayını;
b) hər qrup üzrə və hər bir işçiyə düşən aylıq əmək haqqının məbləğini;
c) hər qrup üzrə və hər bir işçiyə düşən ümumi iş stajını.

İşçinin tabel №-si	Təhsili (neçənci sinifi bitirib)	Tarif dərəcəsi	Hasilat normasının yerinə yetirilməsi %	Ümumi iş stajı (il)	Ayliq əmək haqqı (manat)
01	9	6	102	7	165
02	11	5	107	10	135
03	11	4	80	8	112
04	9	6	120	24	172
05	11	4	75	7	80
06	9	4	103	11	119
07	11	5	99	12	136
08	9	4	110	8	124
09	11	5	70	10	139
010	11	6	140	45	113
011	9	1	101	1	79
012	11	4	85	10	122
013	11	6	70	30	179
014	11	1	103	2	85
015	9	3	110	5	115

Həlli:

İlk növbədə Bərabər fasilənin kəmiyyətini hesablayaq:

d= $\frac{X_{max} - X_{min}}{n}$ düstura əsasən, misalımızda **fəhlələri aylıq əmək haqqının həcminə görə** X_{max}= 179, X_{min}= 79, n= 4. d= $\frac{179-79}{4}$ = 25.

Qruplar	Aylıq əmək haqqının həcminə görə qruplar	Hər qrupa aid işçinin tabel №-si	Təhsil növünə görə işçilərin sayı	Cəm aylıq əmək haqqı	Hər işçiyə düşən aylıq əmək haqqının məbləği	Cəm ümumi iş stajı	Hər işçiyə düşən ümumi iş stajı

1	79-104	05,011,014	3	244	81,3	10	3,3
2	104-129	03,06,08,010,012,015	6	705	117,5	87	14,5
3	129-154	02,07,09	3	410	136,6	32	10,6
4	154-179	01,04,013	3	516	172	61	20,3

10.

İki yaşayış məntəqəsində yaşayan əhalinin sayı və doğulanların cinsi tərkibi haqqında aşağıdakı məlumatlar verilmişdir:

Yaşayış məntəqələri	***Əhalinin orta illik sayi (nəfər)***	***Doğulan uşaqların sayı(nəfər)***		
		Cəmi	***O cümlədən***	
			Oğlan	***Qız***
№ 1	**5000**	**115**	**?**	**60**
№ 2	**2000**	**50**	**32**	**?**

.Bu məlumatlara əsasən:1)hər bir yaşayış məntəqəsi üzrə ayrılıqda intensivlik nisbi kəmiyyətini,2. Quruluş nisbi kəmiyyətini və kişilərin sayını əsas götürməklə koordinasiya nisbi kəmiyyətini; 3. hər bir göstərici üzrə müqayisə nisbi kəmiyyətini (B məntəqəsini əsas götürməklə) hesablayın.

Əvvəlcə cədvəldəki çatışmayan məlumatları tapaq:

- № 1 məntəqə: Oğlan sayı = 115 - 60 = 55
- № 2 məntəqə: Qız sayı = 50 - 32 = 18

1) İntensivlik nisbi kəmiyyəti

Bu göstərici hər 1000 nəfərə düşən doğulanların sayını (doğum əmsalı) ifadə edir:

$$\textbf{İNK} = \frac{\textbf{A hadisəsinin həcminin kəmiyyəti}}{\textbf{A hadisəsinin yayıldığı hadisənin kəmiyyəti}}$$

- № 1 üçün: (115 / 5000) x 1000 = 23 (hər min nəfərə 23 doğulan)
- № 2 üçün: (50 / 2000) x 1000 = 25 (hər min nəfərə 25 doğulan)

2. Quruluş və Koordinasiya nisbi kəmiyyətləri

Quruluş nisbi kəmiyyəti (hissənin çəkisi):

$$\textbf{QNK} = \frac{\boldsymbol{Məcmunun\ ayrı-ayrı\ hissələrinin\ göstəricisi}}{\boldsymbol{Bütün\ məcmunun\ həcmi\ göstəricisi}},\ \boldsymbol{d_i = \frac{y_i}{\sum y}}\ \textbf{x 100}$$

- № 1: Oğlanlar = 55/115 ≈ 0.478 (%47.8);

  Qızlar = 60/115 ≈ 0.522 (%52.2)

- № 2: Oğlanlar = 32/50 = 0.64 (%64);

Qızlar = 18/50 = 0.36 (%36)

Koordinasiya nisbi kəmiyyəti (kişilərin sayını əsas götürməklə):

$$\textbf{KNK} = \frac{\boldsymbol{məcmunun\ ayrı-ayrı\ hissələrinin\ həcmi}}{\boldsymbol{məcmunun\ müqayisənin\ əsası\ kimi\ qəbul\ edilmiş\ hissəsi}} = \frac{\boldsymbol{y_i}}{\boldsymbol{y_{baza}}}$$

Hər 100 oğlana düşən qız sayını tapaq:

- № 1: (60 / 55) x 100 ≈ 109 (100 oğlana 109 qız)
- № 2: (18 / 32) x 100 ≈ 56.25 (100 oğlana 56 qız)

3. Müqayisə nisbi kəmiyyəti (№ 2 məntəqəsini əsas götürməklə)

$$\textbf{MNK} = \frac{\boldsymbol{A\ obyektinə\ aid\ olan\ kəmiyyət}}{\boldsymbol{B\ obyektinə\ aid\ olaqn\ kəmiyyət}}$$

- Əhalinin sayına görə: 5000 / 2000 = 2.5 dəfə
- Doğulanların sayına görə: 115 / 50 = 2.3 dəfə

11. Bölgü sırasının mahiyyəti, ünsürləri, növləri və onların qrafik təsvirinin izahı.

Bölgü sırası – öyrənilən hadisə və proseslərin hər hansı bir əlamətə görə qruplaşdırılmasını və bu qrupların vahidlərin sayına görə paylanmasını göstərən statistik cədvəldir. Sadə dildə desək, məlumatların müəyyən bir nizama salınmış formasıdır.Statistik bölgü sıralarının xarakterinin və qanunauygunlugunun öyrənilməsində qrafik metodunun böyük əhəmiyyəti vardır. Qrafiklərin köməyi ilə sosial-iqtisadi hadisələrin inkişafındakı qanunauyğunluqları asanlıqla aşkar etmək və onları əyani şəkildə təsvir etmək mümkün olur.. Qrafiklərin çox böyük əyanilik xarakteri vardır. Qrafikləri qurmaqda məqsəd statistika məlumatını əyani, başa düşüləcək şəkildə təsvir etməkdən, ümumiləşdirməkdən, öyrənilən hadisə üçün xarakterik olan əlaqə və nisbətləri öyrənməkdən ibarətdir.

Bölgü sırasının ünsürləri

Hər bir bölgü sırası iki əsas elementdən ibarətdir:

- Variantlar (x): Əlamətin kəmiyyət ifadəsidir (məsələn, işçilərin maaşı, yaşı və s.).
- Tezliklər (f): Hər bir variantın (və ya intervalın) sırada neçə dəfə təkrarlandığını göstərən rəqəmdir. Tezliklərin cəmi (\sum f) bütün müşahidə vahidlərinin sayını verir.

Bölgü sırasının növləri

Bölgü sıraları əsasən iki qrupa bölünür:

- Atropometrik (keyfiyyət) sıralar: Vahidlərin keyfiyyət əlamətlərinə görə (məsələn, cinsinə, ixtisasına, milliyyətinə görə) paylanmasıdır.
- Variasiya sıraları: Vahidlərin kəmiyyət əlamətlərinə görə paylanmasıdır. Variasiya sıraları da öz növbəsində iki yerə ayrılır:
    1. Diskret variasiya sırası: Əlamət yalnız tam ədədlərlə ifadə olunur (məsələn, ailədəki uşaqların sayı).
    2. İnterval variasiya sırası: Əlamət müəyyən bir diapazonda (intervalda) dəyişir (məsələn, iş stajı: 0-5 il, 5-10 il və s.).

Statistik bölgü sıralarının təsviri qrafikləri:

- ***Poliqon*** qrafikdən diskret bölgü sıralarının əyani təsvirində istifadə edilir. Poliqon qrafiki qurmaq üçün düzbucaqlı koordinat sisteminin absis oxunda eyni miqyasla variasiya əlamətinin ranjirləşdirilmiş qiymətləri, ordinat oxunda isə tezliklər əks olunur.
- Fasiləli bölgü sıralarını əyani təsvir etmək üşün **histoqram qrafikdən** istifadə edilir. Bu qrafiki qurmaq üçün absis oxunda qruplar, ordinat oxunda isə tezliklər əks etdirilir.
- **Kumulyativ(artan yekunla) tezlik** tezliklərin ardıcıl cəmlənməsindən alınan tezliklərdir.

12.

İşəmuzd fəhlələrin iş stajı və orta aylıq əmək haqqına dair aşağıdakı statistik məlumatlar verilmişdir.

Sıra №-SI	Fəhlələrin iş stajı (il)	Fəhlələrin orta aylıq əmək haqqı (min. man)
1	1,0	150,0
2	6,5	240,0
3	9,2	260,0
4	4,5	190,0

5	6,0	185,0
6	2,5	182,0
7	2,7	160,0
8	16,0	220,0
9	14,0	280.,0
10	11,0	300,0
11	12,0	320,0
12	10,5	290,0
13	9,0	210,0
14	5,0	182,0
15	10,2	296,0
16	5,0	190,0
17	5,4	210,0
18	7,5	240,0
19	8,0	200,0
20	8,5	290,0

İş stajı ilə əmək haqqı arasındakı asılılığı öyrənmək üçün işəmuzd fəhlələrin iş stajına görə 5 bərabər fasiləli qrup təşkil edin və hər qrup üzrə yekunları (cəmi və orta hesabla bir fəhləyə düşən) hesablayın. Nəticələri statistika cədvəli şəklində təqdim edin və nəticə çıxarın.

Həlli:

İlk növbədə Bərabər fasilənin kəmiyyətini hesablayaq:

d= $X^{max}\bar{}\,n\,^{Xmin}$ düstura əsasən, misalımızda işəmuzd fəhlələrin iş stajına görə X_{max}=

16,0 ; X_{min}= 1,0; n= 5 və d= $\frac{16,0-1,0}{5}$ = 3.

Qruplar	İşəmuzd fəhlələrin iş stajına görə qruplar	Hər qrupa aid sıra №-LƏRI	Sıra nömrələrinin sayı	Cəm orta aylıq əmək haqqı	Hər bir fəhləyə düşən aylıq əmək haqqı
1	1,0 – 4,0	1,6,7	3	492	164
2	4,0 – 7,0	2,4,5,14,16,17	6	1197	199,5
3	7,0 – 10,0	3,13,18,19,20	5	1200	240
4	10,0 – 13,0	10,11,12,15	4	1206	301,5

5	13,0 – 16,0	8,9	2	500	250
Yekun	-	-	20	4595	1155

13. Statistika cədvəli anlayışı, onun əsas elementləri, növləri və qurulma qaydası.

Statistika məlumatının izahı və təqdim edilməsi müxtəlif formalarda həyata keçirilə bilər. Bu formalardan ən mühümlərindən biri statistika cədvəlləridir. Statistika cədvəlləri ictimai hadisələrin rəqəmlərlə təsvirinin və təhlil edilməsinin ən səmərəli forması hesab olunur. Onlar statistik müşahidə nəticəsində əldə edilmiş məlumatların sistemli şəkildə təqdim edilməsinə, müqayisə edilməsinə və ümumiləşdirilməsinə imkan yaradır.

Statistika cədvəlinin iki əsas hissəsi vardır: **mübtəda** və **xəbər**. Cədvəlin mübtədasında öyrənilən hadisənin ayrı-ayrı qrupları, elementləri və ya vahidlərinin siyahısı verilir. Başqa sözlə, mübtəda cədvəldə nədən söhbət getdiyini göstərir. Mübtədanı xarakterizə edən göstəricilər isə cədvəlin xəbəri adlanır. Adətən mübtəda cədvəlin sol tərəfində, xəbər isə sağ tərəfində yerləşdirilir.

Statistika cədvəlinin əsas elementləri aşağıdakılardır:

- Ümumi başlıq;
- Yan başlıq;
- Yuxarı başlıq;
- Mübtəda;
- Xəbər;
- Sətirlər və sütunlar.

Ümumi başlıq cədvəlin üst hissəsində yerləşir və onun məzmununu qısa şəkildə xarakterizə edir. Yan başlıq cədvəlin sol tərəfində yerləşərək sətirlərin məzmununu göstərir. Yuxarı başlıq isə sütunların məzmununu izah edir və cədvəlin yuxarı hissəsində yazılır.

Mübtədasının xarakterinə görə statistika cədvəlləri üç növə bölünür:

1. Sadə cədvəllər.
Mübtədasında müşahidə vahidlərinin, xronoloji tarixlərin və ya ərazi bölgülərinin siyahısı verilən cədvəllərə sadə cədvəllər deyilir. Belə cədvəllər hadisənin ümumi vəziyyətini göstərsə də, onun quruluşunu və hadisələr arasındakı əlaqələri aşkar etməyə imkan vermir.

2. Qruplu cədvəllər.
Mübtədasında bir əlamət üzrə yaradılmış qruplar olan cədvəllərə qruplu statistika

cədvəlləri deyilir. Bu cədvəllər hadisənin quruluşunu öyrənməyə və müxtəlif qrupları müqayisə etməyə imkan verir.

3. Quraşıq cədvəllər.
Mübtədasında iki və ya daha çox əlamət üzrə yaradılmış qruplar olan cədvəllər quraşıq cədvəllər adlanır. Bu cədvəllər hadisələr arasındakı qarşılıqlı əlaqələrin daha dərindən təhlil edilməsinə şərait yaradır.

Statistika cədvəllərinin qurulması zamanı bir sıra qaydalara əməl edilməlidir. Cədvəlin başlığı onun məzmununu tam və aydın ifadə etməli, sətir və sütunların adları dəqiq göstərilməlidir. Mübtəda və xəbər hissələri məntiqi ardıcıllıqla yerləşdirilməli, göstəricilərin ölçü vahidləri qeyd olunmalıdır. Cədvəl sadə, anlaşıqlı və təhlil üçün əlverişli formada tərtib edilməlidir. Həmçinin yekun göstəricilər ayrıca göstərilməli və məlumatların müqayisə olunmasına imkan yaradılmalıdır. Bu qaydalara əməl olunması statistika cədvəllərinin informativliyini və təhlil imkanlarını artırır.

14.

Hesabat dövründə ticarət mağazaları üzrə aşağıdakı məlumatlar mövcuddur:

№	Mal dövriyyəsi, min man.	Satış xərc-ləri, min man.	№	Mal dövriyyə si, min man.	Satış xərc-ləri, min man.	№	Mal dövriy-yəsi, min man.	Satış xərc-ləri, min man.
1	808	34,3	9	940	35,4	17	602	28,3
2	706	25,4	10	965	37,8	18	748	31,0
3	663	32,2	11	544	16,1	19	980	37,0
4	854	31,1	12	318	16,0	20	641	21,3
5	882	37,4	13	324	10,9	21	452	20,1
6	916	38,6	14	301	9,3	22	240	16,1
7	563	24,2	15	352	12,1	23	800	40,2
8	256	9,0	16	406	17,2	24	900	50,0

Mal dövriyyəsinin həcmi ilə satış xərcləri arasındakı əlaqəni öyrənmək üçün mal dövriyyəsinin həcminə görə bərabər fasiləli dörd mağaza qrupunu formalaşdırın.

1)Hər qrup üçün hesablayın: a) mağazaların sayını; b) mal dövriyyəsinin məbləğini - cəmi və orta hesabla bir mağazaya düşən; c) satış xərclərini - cəmi və orta hesabla bir mağazaya görə; d) mal dövriyyəsinin 1 manatına duşən satış xərclərini.2) Nəticələri qruplu cədvəli şəklində təqdim edin. Cədvəl məlumatlarını təhlil edin və nəticə çıxarın. statistik bölgü sırasını müvafiq qrafikdə təsvir edin.Alınmış nəticəni şərh edin

14) İlk növbədə mal dəyüşgünün hesmiss gözə bəbər şəkildə 4 mağaza qrupuna təqsim:

$d = \frac{x_{max} - x_{min}}{n}$ => dürtüm xəsm.

misalımızda mal dəyüşgünün hesmiss gözə $x_{max} = 980$, $x_{min} = 240$, $n = 4$.

$$d = \frac{980 - 940}{4} = \frac{740}{4} = 185.$$


Qruplar:

1ci qrup → 240 - 425.

2ci qrup → 425 - 610.

3cü qrup → 610 - 795.

4cü qrup → 795 - 980.



15. Nisbi kəmiyyətin növlərinin hesablanması qaydasını izah edin.

Tədqiq olunan hadisələrin xüsusiyyətlərindən asılı olaraq nisbi kəmiyyətlər müxtəlif formalarda ifadə oluna bilər.Nisbi kəmiyyətlərin ən sadə ifadə forması bir kəmiyyətin digər kəmiyyətdən neçə dəfə çox və ya az olduğunu bildirən əmsal göstəricisidir. Nisbi

kəmiyyətlərin ən geniş yayılmış ifadə formalarından biri **faizdir.** Hesabat kəmiyyətini (müqayisə edilən ədədi) müayisə üçün əsas götürülmüş kəmiyyətə bölüb, 100 - ə vurduqda nisbi kəmiyyət faizlə ifadə edilmiş olur. Faizlə ifadə edilmiş nisbi kəmiyyətin yanında % işarəsi yazılır.

Bəzən nisbi kəmiyyətlər **promille** (ədədin mində biri) və prodessimile (ədədin on mində biri) ilə ifadə olunur. Bu ifadə formalarından müqayisə olunan kəmiyyət müqayisənin əsasını təşkil edən kəmiyyətdən çox kiçik olduqda istifadə olunur. Promille və prodessimillenin işarələri müvafiq olaraq aşağıdakı kimidir : ⁰/00 ; ⁰/000 .Promilledən əhali statistikasında, prodessimilledən isə səhiyyə statistikasında geniş istifadə olunur.

Təcrübədə nisbi kəmiyyətlərin aşağıdakı növlərindən istifadə olunur:

1. Planın yerinə yetirilməsi nisbi kəmiyyəti
2. Plan tapşırığı nisbi kəmiyyəti
3. Dinamika nisbi kəmiyyəti
4. Quruluş nisbi kəmiyyəti
5. İntensiv nisbi kəmiyyəti
6. Koordinasiya nisbi kəmiyyəti
7. Müqayisə nisbi kəmiyyəti

Planın yerinə yetirilməsi nisbi kəmiyyəti bu və ya digər müddət ərzində müəyyən göstəricilər üzrə plan tapşırıqlarının yerinə yetirilmə dərəcəsini xarakterizə edir və faiz şəklində hesablanır.

Planın yerinə yetirilməsi faizini hesablamaq üçün hesabat (həqiqi) məlumatını 100- ə vurub plan məlumatına bölmək lazımdır.Fərz edək ki, hər hansı bir rayonda planda nəzərdə tutulmuş 20 min tona qarşı həqiqətdə 22 min ton taxıl ıstehsal edilmişdir. Buradan planın yerinə yetirilməsi dərəcəsi 110 % ( ) təşkil edir ki, bu da planın 10 % (110-100) artıqlaması ilə yerinə yetirilməsi deməkdir.Planın yerinə yetirilməsi faizi 100 – dən aşağı olduqda plan yerinə yetirilməmiş hesab olunur.

Plan tapşırığı nisbi kəmiyyətini hesablamaq üçün qarşıdakı dövr üçün plan tapşırığı göstəricisini 100 -ə vurub, əsas dövrdəki müvafiq faktiki göstəriciyə bölmək lazımdır.Fərz edək ki, müəssisədə 50 min ton məhsul istehsal edilmişdir, qarşıdakı ildə isə onun həcmini 55 min tona çatdırmaq nəzərdə tutulmuşdur. Plan tapşırığı nisbi

kəmiyyəti 110 % ( ) təşkil edər. Bu o deməkdir ki, müəssisədə il ərzində məhsul istehsalını 10 % artırmaq nəzərdə tutulur.

İctimai hadisələrin səviyyəsinin zaman etibarilə dəyişməsini xarakterizə edən nisbi göstəricilərə dinamika nisbi kəmiyyətləri deyilir. Dinamika nisbi kəmiyyəti əmsal və faizlə ifadə oluna bilər. **Dinamika nisbi kəmiyyəti** iki qaydada - əsas və silsiləvi qaydada hesablanır.

Bütün dövrləri müqayisə üçün əsas götürülmüş dövrlə müqayisə etdikdə alınan nisbi göstəricilərə əsas dinamika nisbi kəmiyyətləri deyilir.

Hər dövr özündən əvvəlki dövrlə müqayisə edildikdə alınan nisbi göstəricilərə silsiləvi dinamika nisbi kəmiyyəti deyilir.

Deməli, birinci halda müqayisə üçün əsas kəmiyyət daimi, ikinci halda isə dəyişən götürülür.

Əgər əsas dövrün mütləq kəmiyyətini q0 , hesabat dövrünün mütləq kəmiyyətini q1 , plan tapşırığı mütləq kəmiyyətini isə qpl ilə işarə etsək, o zaman :plan tapşırığı nisbi kəmiyyətini qpl/q0, planın yerinə yetirilməsi nisbi kəmiyyətini q1/qpl, dinamika nisbi kəmiyyətini q1/q0 kimi yazmaq olar. Bu üç göstərici arasında əlaqə aşağıdakı kimidir.

$$1.\ \frac{q_1}{q_0} : \frac{q_{pl}}{q_0} = \frac{q_1}{q_{pl}}$$

$$2.\ \frac{q_{pl}}{q_0} \times \frac{q_1}{q_{pl}} = \frac{q_1}{q_0}$$

$$3.\ \frac{q_1}{q_0} : \frac{q_1}{q_{pl}} = \frac{q_{pl}}{q_0}$$

Quruluş nisbi kəmiyyəti öyrənilən məcmuyun tərkibini xarakterizə edir. Quruluş nisbi kəmiyyəti hissənin tama olan nisbətini və ya ümumi yekunda hissələrin xüsusi çəkilərini göstərir. Onu hesablamaq üçün məcmuyun ayrı – ayrı hissələrinin kəmiyyətlərini ümumi yekun kəmiyyətinə bölmək lazımdır.

Hadisənin yayılma dərəcəsini xarakterizə edən göstəriciyə **intensiv nisbi kəmiyyəti** deyilir. Bu nisbi kəmiyyət iki müxtəlif adlı mütləq kəmiyyətin müqayisəsi nəticəsində alınır. İntensiv nisbi kəmiyyətə misal olaraq demoqrafiya əmsallarını, işçilərin, dəzgahların boş dayanma əmsallarını, işçi axını, işə qəbul və işdən çıxma üzrə dövriyyə

əmsallarını və s. göstərmək olar. İntensiv nisbi kəmiyyəti əmsal, faiz, promille, prodesimille ilə ifadə oluna bilər. Əhalinin hər nəfərinə düşən mühüm növ məhsul istehsalı, istehlakın səviyyəsi və s. belə nisbi kəmiyyətlər də intensiv nisbi kəmiyyətlər adlanır

Koordinasiya nisbi kəmiyyəti statistika məcmuyunda ayrı – ayrı hissələrin müqayisə üçün əsas götülümüş hissəyə nisbətini xarakterizə edir. Bu üsulla hesablama nəticəsində alınmış göstəricilər məcmuyun quruluşu haqqında müəyyən təsəvvür yaratdıqlarına görə onları çox vaxt quruluş nisbi kəmiyyətlərindən ayırmırlar. Lakin qeyd etmək lazımdır ki, onlar məcmuyun quruluşunu deyil, hissələrin bir – birinə olan nisbətini xarakterizə edir.Məsələn, hər 100 fəhləyə düşən qulluqçuların, mühəndis – texniki işçilərin, şagirdlərin, kiçik xidmət – edici heyətin sayı, ölkədə hər 100 kişiyə düşən qadınların sayı və s. kimi göstəricilər koordinasiya nisbi kəmiyyəti adlanır.

Müxtəlif obyektlərə aid olan eyni adlı göstəricilərin müqayisəsi nəticəsində alınan nisbi göstəricilərə **müqayisə nisbi kəmiyyətləri** deyilir. Müqayisə edilən nisbi göstəricilər eyni dövrə və ya eyni zaman anına aid olmalıdır. Məsələn, müxtəlif ölkələrdə, bir ölkə daxilində müxtəlif iqtisadi rayonlarda eyni vaxtda ümumi daxili məhsul, çuqun, polad, neft və s. məhsul istehsalının səviyyəsini müqayisə etdikdə müqayisə nisbi kəmiyyəti alınır. Müqayisə nisbi kəmiyyəti, adətən, əmsal və faiz şəklində ifadə olunur.

16.

	MƏHSUL BURAXILIŞI (ƏDƏD)				
	1 №-Lİ ZAVOD		***2 №-Lİ ZAVOD***		
	Əsas dövrdə	***Hesabat dövründə***	***Əsas dövrdə***	***Plan tapşırıgı***	***Hesabat dövründə***
A	**600**	**750**	**620**	**610**	**650**
B	**600**	**700**	**400**	**500**	**700**
C	**700**	**400**	**500**	**505**	**520**

Verilmiş məlumatlar əsasında hesablayın:

1) **2 № -li zavodda A məhsulu üzrə plan tapşırıgı, planın yerinə yetirilməsi və dinamika nisbi kəmiyyəti;**
2) **1 № -li zavodda hər iki dövr üzrə quruluş və koordinasiya nisbi kəmiyyətlərini;**
3) **Əsas və hesabat dövrləri üzrə müqayisə nisbi kəmiyyətini.**
4) **Alınmış nəticəni şərh edin.**

Həlli: Həlli: 1) 2 №-li zavodda A məhsulu üzrə nisbi kəmiyyətlər

- **Plan tapşırığı nisbi kəmiyyəti:**

$$P_{TNK} = \frac{Y_{pl}}{Y_{i-1}}$$ **, (Plan / Əsas dövr) = 610 / 620 ≈ 0.984 (%98.4)**

- **Planın yerinə yetirilməsi:**

$$P_{YNK} = \frac{Y_1}{Y_{pl}}$$ **, (Hesabat / Plan) = 650 / 610 ≈ 1.066 (%106.6)**

- **Dinamika nisbi kəmiyyəti:**

DNK =

$$\frac{Hadisənin\ cari\ səviyyəsi}{Hadisənin\ cari\ səviyyədən\ əvvəlki\ dörd\ səviyyəsini\ və\ ya\ müqayisə\ üçün\ qəbul\ edilmiş\ baza\ dövrünün\ səviy}$$

, (Hesabat / Əsas dövr) = 650 / 620 ≈ 1.048 (%104.8)

2) 1 №-li zavodda quruluş və koordinasiya

Quruluş (Hər məhsulun ümumi buraxılışda payı):

$$\mathbf{QNK} = \frac{Məcmunun\ ayrı-ayrı\ hissələrinin\ göstəricisi}{Bütün\ məcmunun\ həcmi\ göstəricisi},\ d_i = \frac{y_i}{\sum y}\ \mathbf{x\ 100}$$

- Əsas dövrdə cəmi: 600 + 600 + 700 = 1900

A: 600/1900 ≈ 31.6\%,
B: 31.6\%,
C: 700/1900 ≈ 36.8\%

- Hesabat dövründə cəmi: 750 + 700 + 400 = 1850

A: 750/1850 ≈ 40.5\%,
B: 700/1850 ≈ 37.8\%,
C: 400/1850 ≈ 21.7\%

Koordinasiya (A məhsulunu əsas götürməklə):

$$\mathbf{KNK} = \frac{məcmunun\ ayrı-ayrı\ hissələrinin\ həcmi}{məcmunun\ müqayisənin\ əsası\ kimi\ qəbul\ edilmiş\ hissəsi} = \frac{y_i}{y_{baza}}$$

- Əsas dövr: B/A = 600/600 = 1;
  C/A = 700/600 ≈ 1.17
- Hesabat dövrü: B/A = 700/750 ≈ 0.93;
  C/A = 400/750 ≈ 0.53

3) Müqayisə nisbi kəmiyyəti (Zavodlar arası)

Bu göstərici 1-ci zavodun göstəricilərinin 2-ci zavoda nisbətini göstərir (Hesabat dövrü üçün):

$$\mathbf{MNK} = \frac{A\ obyektinə\ aid\ olan\ kəmiyyət}{B\ obyektinə\ aid\ olaqn\ kəmiyyət}$$

- Məhsul A: 750 / 650 ≈ 1.15
- Məhsul B: 700 / 700 = 1

- Məhsul C: 400 / 520 ≈ 0.77

17. Maşın sexi üzrə aşagıdakı aylıq məlumatlar vardır

Göstərici	**Hesabat ayı**		**Əvvəlki ay,faktiki**
	Plan ayı	**faktiki**	
Əmtəəlik məhsullar, milyon manat	**208,6**	**?**	**201,5**
İşçilərinin orta sayı, nəfər	**135**	**132**	**?**
Bir işçiyə orta məhsuldarlıq, min manat		**1673**	**1504**

Cədvəldə çatışmayan göstəriciləri hesablayın və bütün göstəricilər üzrə plan tapşırıgı, planın yerinə yetirilməsi və dinamika nisbi kəmiyyətlərini hesablayın. Hesablanmış nisbi kəmiyyətlər arasındakı əlaqəni yoxlayın.

17) Hesabat ayı üzrə;

Faktiki işçi sayı: 132 nəfər

Faktiki məhsuldarlıq: 1673 min manat.

Mütləq məbləğ (faktiki) = $\frac{132 \cdot 1673}{100}$ =

= 220,836 ≈ 220,8

Əvvəlki ay üzrə;

Əvvəlki ayın faktiki mütləq məbləği:

: 201,5 mln. manat => 201,5 · 1000 =

= 201500 min manat.

Əvvəlki ayın faktiki məhsuldarlığı: 1504

İşçilərinin orta sayı = $\frac{201500}{1504}$ ≈ 133,98 ≈

≈ 134 nəfər.


Hesabat ayı üzrə;

Məhsuldarlıq = $\frac{208,6 \cdot 1000}{135}$ ≈ 1545,19

min manat.

2) Plan tapşırığı nisbi kəmiyyəti:

$T_{NK} = \frac{y_{pl}}{y_{i-1}}$, (Plan / Əsas dövr)



Sutkalıq məhsul üzrə → $T_{NK} = \frac{Plan}{Faktiki} \cdot 100\% =$

$= \frac{208,6}{201,5} \cdot 100\% = 103,52\%$.

İşçilərin orta sayı üzrə → $T_{NK} = \frac{135}{134} \cdot 100\% =$

$= 100,75\%$

Bir işçiyə orta məhsuldarlıq üzrə:

$T_{NK} = \frac{1545,19}{1504} \cdot 100\% = 102,74\%$.

3) Planın yerinə yetirilməsi:

$T_{NK} = \frac{y_1}{y_{pl}}$, (Hesabat / Plan).

Ümumi məhsul üzrə: $T_{yük} = \frac{Faktiki}{Plan} =$

$= \frac{220,8}{208,6} \cdot 100\% \approx 105,85\%$.

İşçilərin orta say üzrə: $T_{yük} = \frac{132}{135} \cdot 100 =$

$= 97,78\%$.

Bir işçiyə orta məhsuldarlıq üzrə:

$T_{yük} = \frac{1673}{1545,19} \cdot 100\% = 108,27\%$.

8) Dinamika nisbi kəmiyyəti:

$DNK = \frac{\text{Hesabat cari sərfiyyəsi}}{\text{Hesabat cari sərfiyyəsini müqayisə üçün qəbul edilmiş baza dövrünün sərfiyyəsi}}$

Ümumi məhsul üzrə: $DNK = \frac{220,8}{201,5} \cdot 100\% =$

$= 109,58\%$.

İşçilərin orta say üzrə: $DNK = \frac{132}{134} \cdot 100\% =$

$= 98,51\%$.

Bir işçiyə orta məhsuldarlıq üzrə:

$DNK = \frac{1673}{1504} \cdot 100\% = 111,24\%$.

18.

3 müəssisə üzrə fəhlələrin əmək haqqısı haqqında aşagıdakı məlumatlar verilmişdir:

Müəssisə	2024		2025	
	Orta əmək haqqı, man	Fəhlələrin sayı, nəfər	Orta əmək haqqı, man	əmək haqqı fondu, man
1	200	15	250	2500
2	500	17	400	2000
3	600	5	800	1600

İzahı verilməklə əsas və hesabat dövrləri üzrə fəhlələrin əmək haqqını və əsas dövrə nisbətən hesabat dövründə orta əmək haqqının dəyişməsi faizini hesablayın.
Hər müəssisə üzrə üzrə əsas dövrə nisbətən hesabat dövründə orta əmək haqqının dəyişməsini müəyyən edin. Alınmış nəticəni şərh edin.

HƏLLİ:

1) 2025-ci il üzrə işçi sayını tapaq

$$\mathbf{n} = \frac{F}{\bar{x}}$$

F - əmək haqqı fondu
x̄ - orta əmək haqqı
1-ci müəssisə:
n_1 = 2500/ 250 = 10

2-ci müəssisə:
n_2 = 2000/ 400= 5

3-cü müəssisə:
n_3= 1600/800 = 2

2) 2024-cü il üzrə orta əmək haqqı

$$\bar{x}_1 = \frac{\sum x_i \text{ x } n_i}{\sum n_i}$$

$\sum x_i$ x n_i= 200×15 + 500×17 + 600×5 = 14500

$\sum n_i$= 15 + 17 + 5 = 37

$\bar{x}_1$ = 14500/ 37 ≈ 391.9

3) 2025-ci il üzrə orta əmək haqqı

$$\bar{x}_2 = \frac{\sum F_i}{\sum n_i}$$

$\sum F_i$ = 2500 + 2000 + 1600 = 6100

$\sum n_i$= 10 + 5 + 2 = 17

$\bar{x}_2$= 6100/ 17 ≈ 358.8

4) Orta əmək haqqının dəyişmə faizi

Orta əmək haqqının dəyişmə faizi = $\frac{\bar{x}_2 - \bar{x}_1}{\bar{x}_1}$ x 100

Orta əmək haqqının dəyişmə faizi = $\frac{358.8-391.9}{391.9}$ x 100 = 8.45%

5) Hər müəssisə üzrə dəyişmə faizi

1-ci müəssisə:
$\frac{250-200}{200}$ x 100= 25%

2-ci müəssisə:
$\frac{400-500}{500}$ x 100= -20\%

3-cü müəssisə:
$\frac{800-600}{600}$ x 100 ≈ 33.3\%

NƏTİCƏ:

•Ümumi orta əmək haqqı 8.45% azalmışdır.
•1-ci və 3-cü müəssisədə artım, 2-ci müəssisədə azalma müşahidə olunur.

19. Orta kəmiyyətin mahiyyəti, növləri və hesablanması qaydasını izah edin.

Sosial-iqtisadi tədqiqatlarda istifadə edilən statistikik göstəricilərin ən geniş yayılmış forması **orta kəmiyyətdir.** Orta kəmiyyət mühüm ümumiləşdirici göstərici olmaqla, konkret məkan və zaman şəraitində öyrənilən hadisənin ən tipik səviyyəsini xarakterizə edir. Statistikada ən çöx istifadə edilən göstəricilərdən biri orta kəmiyyətdir. Orta kəmiyyət–kütləvi sosial-iqtisadi hadisələrin kəmiyyət və keyfiyyət tərəflərinin ümumiləşdirici xarakteristikalarını əldə etməyə imkan verən göstəricidir.

Statistika təcrübəsində orta kəmiyyətdən hər hansı statistika məcmuyunun ümumiləşdirici xarakterizəsini vermək üçün geniş şəkildə istifadə edilir. Statistika

məcmuyunu səciyyələndirən bu orta kəmiyyətlər həmişə müəyyən dövr üçün hesablanılır. Belə halda orta kəmiyyət məcmuyun inkişaf qanunauyğunluğunu xarakterizə etmək imkanına malikdir.

Orta kəmiyyət anlayışından elmi təhlildə ilk dəfə V.Petti istifadə etmişdir. O, əmtəənin dəyərinin onun istehsalına sərf edilən orta əməklə müəyyən edilməsini təklif etmişdir. Q.Kinq İngiltərənin əhalisi haqqında məlumatı təhlil edərkən hər bir ailəyə düşən orta gəliri, adambaşına düşən gəliri və s. müəyyən etmişdir.

Orta kəmiyyət təsadüflər nəcitəsində əmələ gələn fərdi kənarlaşmaları qarşılıqlı ödəyir və məcmuya xas olan ümumi xüsusiyyəti, tipik səviyyəni xarakterizəetməyə imkan verir. Orta kəmiyyətin bu xüsusiyyəti onu statistika elmində mühüm ümumiləşdirici göstərici kimi daha da şöhrətləndirir.

